# HƏRBİ JURNALİST "ŞEYTAN OVUNDA"

## (Yerevan, Kəlbəcər, Laçın, Şuşa, Füzuli, Bakı)

**S.Əcirlinin bu yazısı 1993-cü il aprel ayının 8, 17, 21 və 28-də "Azad Azərbaycan" qəzetində dərc edilmişdi. Tacik jurnalisti S.Əcirlinin öz iştirakı ilə cəbhə arxasından qələmə alındığından çox dəyərli tarixi sənəddir.**

Artıq mən Bakıdayam. Amma ürəyim Şuşa şəhərində tək-tənha qalmış və erməni ailəsində sığınacaq tapmış beş yaşlı qızcığaz Bənövşənin yanındadır, indi Novruz bayramıdır. Bahardır. Bənövşələrin qönçə-qönçə açılan vaxtında bu balaca kimsəsiz Bənövşə baharın, təbiətin havasının "çatışmazlığından" solaraq həzin-həzin ağlamaqda davam edir.

"Əmican, nə olar, məni də apar da. Sən Allah, məni mamama apar. Mən sənə öz balamı bağışlayıram. Sən də onu öz qızına apararsan, - deyərək mənə öz gəlinciyini uzadırdı. - Al, əmican, al, mamam sənə çoxlu pul verər, əmi".

Bu uşağın naləsi hərbi müxbir S.Əcirlinin diktafonunda və videokamerasında lentə alınmışdır. Şuşa şəhərinin mərkəzi küçələrindən birindəki evdə əhali oranı tərk edən vaxt çarpayının altında öz qucağında gəlinciyini sıxaraq gizlənmiş bu balaca qız hazırda erməni döyüşçüsünün evində yaşayır. Həmin erməni xahiş etdi ki, uşağın kimin evində yaşaması barədə televiziya ekranlarında və qəzet səhifələrində məlumat verilməsin. Axı, erməni quldurları nəinki uşağı, hətta onların özlərini də məhv edərlər. Hərbi jurnalist - İraq, Küveyt, Kamboca, İran, İsrail, Fələstin, Yuqoslaviya, Litva, Abxaziya, Fərqanə, Tacikistan, Alma-Ata qırğınlarının şahidi susmağı bacarır.

"Şeytan ovu", yaxud qəzəb yoluna səyahət. Martın 25-də səhər açılar-açılmaz Moskvada yaşayan çoxdankı tanışımın - erməni Samvelin telefon zəngi məni oyatdı.

- Ara, axbercan, salam, necəsən? Səni Ramazan bayramı münasibətilə təbrik edirəm.

Mən Samvelə minnətdarlığımı bildirdim, o isə mənim söhbətimi kəsib soruşdu:

- Axbercan, sən "Qarabağ pələngləri" xüsusi hərbi korpusu haqda bir şey eşidibsənmi (Ekspediüionnıy korpus speüialğnoqo naznaçenia "Tiqrı Karabaxa")? Sabah onlar "şeytan ovuna" çıxacaqlar. Sən ovçu olmaq istəmirsən? İstəsən, kömək edə bilərəm.

Razılığımı bildirdim. Martın 26-da səhər saat 10-a yaxın Zvartnos aeroportunun qabağında "kimsəsiz qonaqlar"ı qarşılayan taksi maşınlarının sürücüləri məni əhatəyə aldılar. Çoxlu danışıqdan sonra min rus manatı verdim və artıq Vardenis qəsəbəsinin 7 kilometrliyində yerləşən, Rusiyanın 7-ci ordusunun müasir silahları ilə gücləndirilmiş "Qarabağ pələngləri" ekspedisiya korpusunun həyətindəyəm. Burada bir neçə tanış jurnalistə rast gəlirəm. Korpusun nəzdində müstəqil informasiya mərkəzi təşkil olunub.

Martın 26-da saat 19.30-da ekspedisiya korpusunun rəhbərlərindən biri açıqlı halda dönə-dönə təkrar edirdi: "Yox, yox, bizə Kəlbəcər lazım deyil. Biz heç yeri zəbt etməyə cəhd göstərmirik".

Amma bundan bir neçə saat keçmiş, martın 27-də səhər saat 03.45 dəqiqədə "Qarabağ pələngləri" 17 tankla, 6 "BTR"lə Azərbaycan dövlətinin sərhədlərini keçib Kəlbəcərə sarı yollandılar. "Pələnglərin" başları üzərində Mİ-24 tipli 6 hərbi vertolyot ulayaraq elə bil ki, yanan evi söndürməyə tələsirdi.



Kəlbəcər yolunda dolu arabaların, yüklü karvanların və piyadaların arası kəsilmək bilmirdi. Kəlbəcərin üç-dörd kilometrliyində hələ "Qarabağ pələngləri"nin hücumundan qabaq artilleriya atəşlərindən həlak olmuş qoca və uşaqların, qadınların meyitlərinə rast gəlmək olur. Şəhər mühasirəyə alınır. Əlçatmaz zirvələrin ətəklərindən ara-sıra güllə səsləri eşidilir. "Onlar sərbəst atan snayperlərimizdir. Bir həftədən artıqdır şəhər bizim nəzarətimiz altındadır" - deyə erməni zabiti arxayıncasına dillənir.

Nəhayət, Kəlbəcər rayonu cümə günü tamamilə mühasirəyə alınır. Saat 13-də şəhərin mərkəzində erməni bayrağı dalğalanır. Mühasirəyə alınmış kəlbəcərlilər Azərbaycan Ordusunun köməyi ilə evakuasiya əməliyyatları nəticəsində tezliklə "xilas" olunur. "Qarabağ pələngləri" müasir silahlara malikdir. 1000 nəfərə yaxın bu "pələnglər" MDB silahlı qüvvələrinin "məğlubedilməz cəngavərləri" siyahısında olanlardır. Yarım ilə yaxın hazırlıq keçən, Əfqanıstan, İriston (Osetiya), Abxaziya, Çeçenistan, Tacikistan əməliyyatlarında iştirak edən bu döyüşçülər böyük "opıta" malikdirlər. Onların öhdəsində 26 MİQ və SU-25 markalı hərbi təyyarə, 43 Mİ-24 markalı döyüş vertolyotu, 87 tank, 25 BTR, 19 BMP Azərbaycan torpağını darmadağın etməyə hazır durublar. 10-12 millətin nümayəndəsi olan bu "pələnglər"in zabitlərinin əsas hissəsi ermənilərdən ibarətdir. Hərbi hissənin rəisi də erməni polkovnikidir. Əfqanıstanda hərbi döyüş alayının kəşfiyyat bölməsinin rəisi vəzifəsində çalışan bu "pələng" ilk dəfə müsəlmanlar tərəfindən yaralanıb. Bu gün isə "öz borcunu" qaytarmaq üçün bu korpusa rəhbərlik etmək üçün razılıq verib. Vardenis rayonunun mərkəzindən 7 km aralıda yerləşən bu korpusun yeri gizli saxlanılır. Oradan təxminən 7 km aralıda isə Zod kəndi yerləşir.

Ermənilərə humanitar yardım arasıkəsilmədən daxil olur. Böyük bir dövlət aparatının nümayəndəsinin dediyinə görə, hazırda Ermənistan anbarlarında yerləşdirilmiş ərzaq, sənaye malları və ev avadanlığı onların yaşayışı üçün beş-altı ilə çatar. Amma erməni xalqı yenə əl açır, üzlərini "böyük qardaşları"na tutaraq kömək diləyirlər.

Şəhərin hava limanında 5 min rubla razılaşan və məni özünün "Jiquli" markalı 63-65 nömrəli maşınında Vardenis qəsəbəsinə çatdırmağa söz verən erməni Azad maşına iki qadın və bir kişini otuzdurdu, halbuki danışığımıza görə məni tək aparmalıydı. Nəhayət, yola düşdük. Ermənistan-Azərbaycan müharibəsindən heç "xəbəri" olmayan kəndlər arxada qalır. Sürücü Azad isə çox söhbətcil olduğunu sübut edərək Amasiya rayonundakı kəndlərində necə doğulub boya-başa çatdığından, azərbaycanlılarla bir ailə kimi yaşadıqlarından danışırd. Azadın dediyinə görə, o, doğulduğu gündən xəstə olub. Həkimlərin dediyinə görə ölməli idi. Amma qocaların məsləhəti ilə atası Armen və anası Karına öz uşaqlarından əllərini üzərək onu qonşu kənddə yaşayan bir azərbaycanlı ailəsinə verirlər. Müsəlman qayda-qanunları ilə Armen kişinin cəbhə dostu olan bu azərbaycanlı ailəsində uşağa Azad adını verirlər. Təmiz, halal əlləri, saf qəlbi olan Güləmbər nənənin himayəsində Azad sağlam uşaq kimi boya-başa çatır. Araz kişi isə Azadı öz oğlu Azər və qızı Cahandan seçmir.

⇨ Davamı var

S.Əcirli